ŞƏRQ qapısı

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 59 (24.196)

5 aprel 2023-cü il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 30 qəpik

Dünyada ilk dəfə tətbiq edilən, uzaq məsafədən idarəolunan platforma

Prezident İlham Əliyev "Azəri-Mərkəzi-Şərqi" platformasının üst modullarının dənizə rəmzi yola salınması mərasimində iştirak edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 4-də Bayıl tikinti-quraşdırma sahəsində "Azəri-Mərkəzi-Şərqi" platformasının üst modullarının dənizə rəmzi yola salınması mərasimində iştirak edib.

BP-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Qəri Counz və "Azəri-Mərkəzi-Şərqi" layihəsinin Baş direktoru Nil Filips dövlətimizin başçısına layihə üzrə görülən işlər barədə məlumat verdilər.

Bildirildi ki, "Azəri-Mərkəzi-Şərqi" layihəsi üzrə yekun investisiya qərarı 2017-ci ildə "Azəri-Çıraq-Günəşli" (AÇG) üzrə Hasilatın Pay Bölgüsü Sazişinin (HPBS) 2049-cu ilə qədər uzadılmasından sonra AÇG tərəfdaşlarının ilk böyük investisiya qərarıdır. Dəyəri 6 milyard dollar olan layihəyə yeni dəniz platforması və gündəlik 100 min barelədək hasilat gücündə digər qurğular daxildir. Layihənin istismar müddəti ərzində, ümumilikdə, 300 milyon barelədək neftin hasil olunacağı proqnozlaşdırılır.

Bu layihə çərçivəsində dənizdə suyun dərinliyinin, təxminən, 140 metr olan sahəsində – "Mərkəzi Azəri" və "Şərqi Azəri" platformalarının arasında 48 şaxtadan ibarət yeni hasilat, qazma və yaşayış platforması quraşdırılacaq. Layihəyə, həmçinin yataqdaxili yeni sualtı boru kəmərləri də daxildir. Bu xətlər platformadan hasil ediləcək neft və qazın Səngəçal terminalına ötürülməsi üçün mövcud AÇG "Faza 2" sualtı ixrac kəmərlərinə qoşulacaq.

Bundan əlavə, laya vurulan suları "Mərkəzi Azəri" kompressor və suvurma platformasından "Azəri-Mərkəzi-Şərqi" qurğularına nəql etmək məqsədilə "Azəri-Mərkəzi-Şərqi" və "Şərqi Azəri" platformaları arasında suvurma boru xətti olacaq.

Məlumat verildi ki, "Azəri-Mərkəzi-Şərqi" platformasının üst modullarına neft və qaz emalı qurğuları, inteqrasiya edilmiş qazma qurğusu, qaz kompressoru və yaşayış blokları daxildir. Modulların layihələndirilmiş çəkisi 19 min 600 tondur.

Üst modullar Bayılda yerləşən tikinti-quraşdırma sahəsində "Azfen" şirkəti tərəfindən yerli infrastruktur və resurslardan istifadə olunmaqla inşa edilib. Hazırda tikinti işlərinin və istismar sınaqlarının son mərhələsi həyata keçirilir və bu sınaqların artıq 95 faizi tamamlanıb.

Üst modulların tikinti işlərinin kulminasiya nöqtəsi Xəzərdə BP-nin ilk dəfə icra etdiyi "qaldırma və sürüşdürmə" əməliyyatı olub. Bu əməliyyat zamanı iki nəhəng qazma modulu təhlükəsiz və səmərəli şəkildə lazımi yüksəkliyə qaldırılaraq relslərlə sürüşdürmə üsulu ilə "Azəri-Mərkəzi-Şərqi" platformasının üst tikililər blokunun üzərinə yerləşdirilib.

Layihənin pik dövründə üst modulların tikintisi işlərinə 4400 nəfərədək işçi cəlb edilib və onların 90 faizindən çoxu Azərbaycan vətəndaşı olub.

Sonra görülən işlərlə bağlı videoçarx nümayiş olundu.

Platforma Səngəçal terminalından, yəni uzaq məsafədən idarə ediləcək. İdarəetmə mexanizminə avtomatlaşdırılmış innovativ sistem daxil edilib.

Yeni "Azəri-Mərkəzi-Şərqi" platformasının əməliyyatlar üzrə meneceri **Fuad İsmayılov**: – Salam, hörmətli cənab Prezident. Biz hazırda platformanın yaşayış blokunda əməliyyatların idarə olunması mərkəzindəyik. Bu mərkəzin əsas iş prinsipi Səngəçal terminalındakı idarəetmə otağında və platforma arasında rabitə əlaqələri kəsildikdə və fövqəladə vəziyyətdə bütün əməliyyatları buradan təşkil etməkdir.

Cənab Prezident, onu da fəxrlə qeyd etmək istəyirəm ki, bu, BP şirkətinin dünyada ilk dəfə olaraq tətbiq etdiyi uzaq məsafədən idarəedilən platformasıdır. Hazırda bizim əməkdaşımız Səngəçal terminalındakı əsas idarəetmə otağından Sizi salamlayacaq.

Baş operator **Seyidağa Kərimli**: – Salam, hörmətli cənab Prezident. Mən Səngəçal terminalındakı yeni "Azəri-Mərkəzi-Şərqi" platformasının əsas idarəetmə otağının baş operatoruyam. Hazırda buradan bütün əməliyyatlarımızın idarə olunduğu nəzarət otağındayam. Burada tətbiq olunan texnologiya ən müasir, sınaqdan keçmiş və beynəlxalq standartlara uyğundur.

Cənab Prezident, BP şirkətinin dünyada ilk dəfə olaraq tətbiq etdiyi uzaq məsafədən idarə prinsipi çərçivəsində əsas idarəetmə otağımız dəniz platformasından, ümumiyyətlə, qaz quyularının istismarı, alınmış xam neft və qazın ilkin ayrılması və nəqli prosesləri daxil olmaqla bütün əməliyyatların idarə edilməsi üçün layihələndirilmişdir. Diqqətinizə görə minnətdaram.

Prezident İlham Əliyev: – Təbrik edirəm. Sizə uğurlar.

Əməkdaşlar: – Çox sağ olun. Təşəkkür edirik.

Prezident İlham Əliyev və BP-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Qəri Counz "Azəri-Mərkəzi-Şərqi" platformasının üst modulları qurğusunun dənizə rəmzi yola salınmasını bildirən düyməni basdılar.

Bildirildi ki, tikinti işlərinin və istismar sınaqlarının 2023-cü ilin ikinci rübündə tamamlanacağı gözlənilir. Həmin vaxt qurğu STB-1 daşıma barjına yüklənəcək, dənizə göndəriləcək və AÇG yatağı sahəsindəki dayaq blokunun üzərinə quraşdırılacaq. Tikinti işlərinin və istismar sınaqlarının dənizdə həyata keçirilən hissəsi tamamlandıqdan sonra "Azəri-Mərkəzi-Şərqi" platformasından ilk neftin 2024-cü ilin əvvəllərində əldə olunması üçün birinci quyunun qazılmasına başlanacaq.

Xatırladaq ki, "Azəri-Mərkəzi-Şərqi" platformasının dayaq bloku ötən il dekabrın 13-də Prezident İlham Əliyevin iştirakı ilə dənizə yola salınıb.

Bütün istismar sınaqları bitdikdən sonra dayaq bloku dənizə yola salınıb və suyun 137 metr dərinliyində öz daimi yerinə quraşdırılaraq üst modulları qəbul etməyə artıq hazırdır.

Qeyd edək ki, "Azəri-Mərkəzi-Şərqi" layihəsi üzrə tikinti işləri 2019-cu ildə başlanıb və iş həcminin 85 faizi artıq tamamlanıb. Layihənin pik dövründə tikinti işlərinə 8500 nəfərdən çox işçi cəlb edilib.

Sonda xatirə şəkli çəkdirildi.

Azərbaycan Prezidenti İlham Əliyev Türkiyənin sənaye və texnologiya nazirini qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 4-də Türkiyə Respublikasının sənaye və texnologiya naziri Mustafa Varankı qəbul edib.

Türkiyənin ilk yerli elektromobili "Togg"un istehsalı ilə bağlı təbriklərini çatdıran dövlətimizin başçısı onun Bakıya gətirilməsindən məmnunluğunu bildirdi, bununla bağlı Türkiyə dövlətinin başçısına minnətdarlığını ifadə etdi.

Azərbaycan Prezidenti bu tipli avtomobilin ikincisinin ölkəmizdə olmasını dostluq və qardaşlıq münasibətlərimizin təzahürü kimi dəyərləndirdi.

Dünən Türkiyənin "Baykar" şirkətinin texniki direktoru Selçuk Bayraktarla görüşünü xatırladan Prezident İlham Əliyev qardaş ölkədə son illərdə həm müdafiə sənayesi, həm də mülki sənaye sahələrində yüksək texnoloji məhsulların istehsal olunduğunu dedi, bunun Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın liderliyi ilə Türkiyə xalqının zəkası, istedadı və əməyi nəticəsində ərsəyə gəldiyini vurğuladı və "Togg"un istehsalına başlanılmasının da bu baxımdan yaxşı nümunə olduğunu bildirdi.

Dövlətimizin başçısı əldə olunan bütün bu uğurlar münasibətilə Türkiyə Prezidentinə, dost və qardaş Türkiyə xalqına təbriklərini çatdırdı.

Mustafa Varank "Togg"un ikinci avtomobilinin Azərbaycanda olmasından Türkiyə Prezidenti və xalqının qürur hissi keçirdiyini bildirdi.

Söhbət zamanı Azərbaycanla Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin müxtəlif istiqamətlərdə, o cümlədən sənaye və texnologiya sahələrində inkişafından məmnunluq ifadə olundu, əməkdaşlığımızın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

Türkiyə sənayesinin növbəti böyük uğuru

Türkiyənin ilk yerli elektromobili "Togg" Azərbaycan Prezidenti İlham Əliyevə təqdim olunub

Aprelin 4-də Türkiyənin ilk yerli elektromobili "Togg" Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə təqdim olunub.

Dövlətimizin başçısı əvvəlcə Türkiyənin sənaye və texnologiya naziri Mustafa Varank, "Togg" şirkətinin baş icraçı direktoru və idarə heyətinin üzvləri ilə görüşdü.

Prezident İlham Əliyev: – Bir daha salaməleyküm.

Mustafa Varank: – Hörmətli cənab Prezidentim, xoş gəldiniz.

Prezident İlham Əliyev: – Xoş gördük.

Türkiyə Palatalar və Birjalar Birliyinin rəhbəri **Rifat Hisarcıklıoğlu:** – Salaməleyküm, cənab Prezidentim, necəsiniz?

Prezident İlham Əliyev: – Salam, xoş gördük. Sizi gözləyirdik.

Rıfat Hisarcıklıoğlu: – Allah razı olsun. Cənab Prezidentim, gödəkçəni geyinərsinizmi?

Prezident İlham Əliyev: – Təbii ki, geyinərəm.

Rifat Hisarcıklıoğlu: – Ölçünü də tam tutdurmuşuq. Cənab Prezidentim, buranı ilk dəfə görürəm. Mənzərə möhtəşəmdir.

Prezident İlham Əliyev: – Bura Bakının ən gözəl, ən mənzərəli yeridir. Ona görə mən bu yeri seçdim.

Xatirə şəkilləri çəkdirildi.

Türkiyənin sənaye və texnologiya naziri Mustafa Varank "Togg" elektromobilinin T10X modelinin açarını dövlətimizin başçısına təqdim etdi.

Mustafa Varank: – Hörmətli cənab Prezidentim, hörmətli Prezidentimizin salamlarını gətirdik.



Prezident İlham Əliyev: – Əleykümsalam.

Mustafa Varank: – Türkiyədən ikinci avtomobili Sizə təqdim etmiş oluruq. Bütün Türk xalqı ikinci avtomobilin Azərbaycana göndərilməsindən çox məmnundur. Xeyirli-uğurlu olsun. İnşallah, gözəl günlərdə istifadə edərsiniz.

Prezident İlham Əliyev: – Çox sağ olun, təşəkkür edirəm. İlk növbədə, Əziz Qardaşım, hörmətli Prezident Rəcəb Tayyib Ərdoğana təşəkkürümü bildirirəm ki, ikinci avtomobilin mənə verilməsini tövsiyə edib. Sizə də təşəkkür edirəm, ilk növbədə, bu gözəl avtomobili istehsal etdiyiniz üçün. Bu, Türkiyənin, Türkiyə sənayesinin növbəti böyük bir uğurudur. Bu hədiyyəni mənə təqdim etdiyiniz üçün xüsusi təşəkkürümü bildirmək istəyirəm.

Mustafa Varank: – Xeyirli olsun.

Sonra Prezident İlham Əliyevə xatirə hədiyyəsi təqdim olundu.

Dövlətimizin başçısı "Togg" elektromobilini idarə etdi.

Qeyd edək ki, 2022-ci il oktyabrın 29-da təqdimatı keçirilən Türkiyənin milli istehsalı olan "Togg" elektromobilinin ilk sifarişçilərindən biri də dövlətimizin başçısı olub. Ötən il noyabrın 2-də Azərbaycan Prezidenti İlham Əliyev Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə telefon söhbəti zamanı dövlətimizin başçısı Türkiyənin mobillik sahəsində xidmət göstərən qlobal texnologiya markası "Togg"un kütləvi istehsala başlanılması münasibətilə təbriklərini çatdırıb və bunu Türkiyə sənayesinin yeni uğuru kimi dəyərləndirib. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan mətbuata açıqlamasında həmin telefon danışığı zamanı Azərbaycan Prezidenti İlham Əliyevin iki ədəd "Togg" elektromobili almaq üçün sifariş verdiyini bildirmişdi.

İlk avtomobil ötən gün Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğana və xanımı Əminə Ərdoğana təqdim olunub.

Xatırladaq ki, "Togg"un kütləvi istehsal zavodunun rəsmi açılış mərasimi ötən il oktyabrın 29-da keçirilib. Zavod Bursa vilayətinin Gemlik rayonunda inşa olunub. 2020-ci ildə təməli qoyulan zavodun inşası iki ilə tamamlanıb. Zavodun açılışı ilə yerli avtomobilin kütləvi istehsalı prosesi başlanıb. Tədbirdə iştirak edən Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan "Togg" elektromobilini sınaqdan keçirib. Rəcəb Tayyib Ərdoğan bildirib ki, il ərzində 175 min avtomobil istehsal olunacaq, 2030-cu ilə qədər istehsal 1 milyonu ötəcək.

Qeyd edək ki, "Togg" elektromobilləri "Pamukkale", "Anadolu", "Gemlik", "Kula", "Oltu" və "Kapadokya" olmaqla, altı rəngdə istehsal olunur. Avtomobil iki modifikasiyada – 200 və 400 at gücündə elektrik mühərriki ilə buraxılır. Ən güclü versiya 0-dan 100 kilometr-saat sürəti 4,8 saniyəyə yığa bilir. Elektromobilin maksimal gediş məsafəsi isə 500 kilometrə yaxındır. Avtomobillərin hazırlanması zamanı onların ətraf mühit üçün tam zərərsiz olmasına xüsusi diqqət yetirilib.

Türkiyənin 60 illik xəyalının reallaşması kimi qiymətləndirilən yerli avtomobil "Togg"un T10X modeli üçün sifariş hüququ qazanan 20 min əsas və 20 min ehtiyat qalibin siyahısı da artıq açıqlanıb. Püşkatma nəticəsində T10X modelini almaq hüququ qazanan şəxslərin siyahısı "Togg"un rəsmi internet saytında elan edilib. Bu modeli əvvəlcədən sifariş verən 177 min 467 nəfər arasında 20 min nəfər yerli avtomobil sahibi olub.

Prezident İlham Əliyev tviterdə paylaşımında Türkiyə Prezidentinə təşəkkür edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana təşəkkür edib.

Dövlətimizin başçısı bununla bağlı tviterdə paylaşım edib.

Azərbaycan Prezidentinin paylaşımında qeyd olunub: "Təşəkkür edirəm, Əziz Qardaşım. Amin! "Togg" Sizin liderliyiniz altında qardaş Türkiyənin elmi-sənaye potensialının inkişafının daha bir bariz nümunəsidir".

Xatırladaq ki, aprelin 4-də Türkiyənin ilk yerli elektromobili "Togg" Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə təqdim olunub. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan tviterdə bununla bağlı paylaşım edərək xoş arzularını bildirib. Türkiyə Prezidentinin təbrik tvitində qeyd olunub: "Qardaşım İlham Əliyev də Türkiyənin qüruru "Togg"u təhvil aldı. Xeyirli olsun. Allah gözəl günlərdə istifadə etməyi nəsib etsin, qardaşım".

Prezident İlham Əliyev 4 Aprel – Beynəlxalq Mina Xəbərdarlığı və Mina Fəaliyyətinə Yardım Günü münasibətilə sosial şəbəkələrdəki hesablarında paylaşım edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 4 Aprel – Beynəlxalq Mina Xəbərdarlığı və Mina Fəaliyyətinə Yardım Günü münasibətilə sosial şəbəkələrdəki hesablarında paylaşım edib.

Dövlətimizin başçısının paylaşımında qeyd olunub: "4 Aprel – Beynəlxalq Mina Xəbərdarlığı və Mina Fəaliyyətinə Yardım Günüdür. Ermənistan Azərbaycanın işğal edilmiş ərazilərində 30 il ərzində 1 milyondan çox mina basdırmışdır. Azərbaycan dünyada mina ilə ən çox çirkləndirilmiş ölkələr arasındadır. 1990-cı illərin əvvəlindən 3300-dən çox vətəndaşımız mina qurbanı olmuşdur. Vətən müharibəsinin başa çatdığı 2020-ci il noyabrın 10-dan etibarən Ermənistanın mina terroru nəticəsində 300-ə qədər Azərbaycan vətəndaşı həlak olmuş və ya ağır yaralanmışdır.

Azərbaycan humanitar minatəmizləməni milli Dayanıqlı İnkişaf Məqsədi kimi elan edəcək. Ölkəmiz humanitar minatəmizləmənin BMT-nin 18-ci Dayanıqlı İnkişaf Məqsədi olması təşəbbüsünü fəal şəkildə təşviq edir. Azərbaycan həm də Minaların Təsirinə Məruz Qalmış Ölkələrin Həmfikirlər Qrupunun yaradılması təklifi ilə çıxış etmişdir.

Hazırda azad edilmiş ərazilərimizdə genişmiqyaslı quruculuq işləri aparılır. Müasir texnologiyalara əsaslanan humanitar minatəmizləmə və mina sahəsində maarifləndirmə bu işlərin tərkib hissəsidir. Mən öz həyatını təhlükə altına ataraq gecə-gündüz çalışan minatəmizləyənlərimizin fəaliyyətini yüksək qiymətləndirirəm. Dünyada mina terroruna son qoymaq üçün beynəlxalq səylər artırılmalıdır".

AZƏRTAC

Dövlət Təhlükəsizliyi Xidmətinə Naxçıvanla bağlı əlavə səlahiyyət verilib

Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov İstintaq təcridxanalarının daxili intizam Qaydalarına dəyişiklik edilməsi ilə əlaqədar qərar imzalayıb.

Qərara əsasən istintaq təcridxanalarında saxlanılan şəxslərin yerləşdirilmə həddi müvafiq olaraq Azərbaycan Respublikasının ədliyyə naziri (Naxçıvan Muxtar Respublikasının ərazisində – Naxçıvan Muxtar Respublikasının ədliyyə naziri) və Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi tərəfindən müəyyən ediləcək.

Əvvəllər bu səlahiyyətə Naxçıvan Muxtar Respublikasının ərazisində Naxçıvan Muxtar Respublikasının Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi malik olub. Nazirlər Kabinetinin yeni qərarı ilə artıq Naxçıvan Muxtar Respublikasının ərazisində də bu sahədə səlahiyyət Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidmətinə həvalə olunub.

Hərbi Prokurorluğun yenidən təşkil olunması layihəsi ilk oxunuşda təsdiqlənib

Azərbaycan Respublikasının Milli Məclisi Naxçıvan Muxtar Respublikası Hərbi Prokurorluğunun yenidən təşkil olunması məsələsini ilk oxunuşda təsdiqləyib.

Parlamentin dünənki plenar iclasında "Prokurorluq haqqında" qanuna dəyişiklik layihəsi I oxunuşda müzakirəyə çıxarılıb.

Dəyişikliyə əsasən Naxçıvan Muxtar Respublikası Hərbi Prokurorluğunun tabelik qaydası dəyişdirilməklə yenidən təşkil olunması nəzərdə tutulur.

Dəyişikliklər nəticəsində həyata keçiriləcək institusional islahatlar prokurorluq orqanlarının struktur quruluşunun təkmilləşdirilməsinə səbəb olacaq.

Xəbərlər şöbəsi

"Ümummilli Lider Heydər Əliyev – 100" mövzusunda elmi konfrans keçirilib

AMEA Naxçıvan Bölməsində İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun təşkilatçılığı ilə "Ümummilli Lider Heydər Əliyev – 100" mövzusunda elmi konfrans keçirilib.

Konfransı giriş sözü ilə bölmənin sədri, akademik İsmayıl Hacıyev açıb. Ölkə başçısı İlham Əliyevin 2022-ci il 29 sentyabr tarixli Sərəncamına əsasən 2023-cü ilin Azərbaycanda "Heydər Əliyev İli" elan olunduğunu diqqətə çatdıran akademik respublika səviyyəsində çoxsaylı tədbirlərin, konfransların keçirildiyini bildirib. Ulu Öndərin 100 illiyi ilə əlaqədar təşkili nəzərdə tutulan konfranslar, çap olunacaq nəşrlər barədə danışan bölmə sədri qeyd edib ki, İncəsənət, Dil və Ədəbiyyat İnstitutu "Heydər Əliyev: həyatı və siyasi fəaliyyəti" adlı kitabı nəşrə hazırlayır. Bölmə rəhbəri Heydər Əliyevin siyasi fəaliyyəti, ölkəyə rəhbərliyi dövründə müəyyənləşdirdiyi inkişaf strategiyası və Azərbaycan tarixindəki müstəsna xidmətlərindən də geniş bəhs edib.

AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun baş direktoru, AMEA-nın müxbir üzvü Əbülfəz Quliyev konfransda "Ümummilli Lider Heydər Əliyev və Türk dünyası" mövzusunda məruzə edib. Professor bildirib ki, dahi şəxsiyyətin formalaşdırdığı və inkişaf etdirdiyi Azərbaycançılıq fəlsəfəsi milli dövlətçiliyimizin bünövrəsini möhkəmləndirmiş, dünya azərbaycanlılarının və türk dövlətlərinin həmrəyliyi üçün möhkəm zəmin yaratmışdır. Türk xalqlarının birliyinə xüsusi önəm verən Ulu Öndərin siyasi-ideoloji fəaliyyəti Azərbaycanla məhdudlaşmayıb, bütövlükdə, Türk dünyasını əhatə etmişdir. Məruzədə dahi şəxsiyyətin türk xalqlarının birliyini möhkəmləndirmək, milli kökə qayıdış, türkologiyaya, türkoloqlara qayğısından, türk yazılı abidələrinin qorunmasına, tərcüməsinə və xalq arasında təbliğinə diqqətindən də söz açılıb.

Konfransda "Ulu Öndər Heydər Əliyev və milli ideologiya" mövzusunda məruzə edən İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun Ədəbiyyatşünaslıq şöbəsinin müdiri, dosent Ramiz Qasımov bildirib ki, Azərbaycan xalqının ümummilli ideologiyası kimi Azərbaycançılıq məfkurəsinin formalaşması və bitkinləşməsi Ümummilli Lider Heydər Əliyevin xidmətləri və zəngin təcrübəsi sayəsində mümkün olmuşdur. Özünəqədərki ideoloji tezisləri təcrübə edən və ümumiləşdirən dahi lider uzunmüddətli liderlik dönəmində bu məfkurənin həyata keçirilməsi və kütləviləşməsi yolunda əvəzsiz xidmətlər göstərmişdir.

İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun Folklorşünaslıq şöbəsinin müdiri, dosent Aytən Cəfərova konfransda "Ümummilli Lider Heydər Əliyev və folklor" mövzusunda məruzə edib. Milli ideyaların və adət-ənənələrimizin qorunması, gələcək nəsillərə ötürülməsi məsələsinin Ümummilli Lider tərəfindən prioritet məqsəd kimi müəyyənləşdirildiyini söyləyən məruzəçi diqqətə çatdırıb ki, Ulu Öndərin fəaliyyətinin əsasında türkçülük düşüncəsinin yaşaması və qorunması ideyası dayanır. Uzaqgörən lider bu məqsədini kəskin irtica rejimində üstüörtülü, müstəqillik dövründə isə əzmlə gerçəkləşdirmişdir.

İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun Dilçilik şöbəsinin aparıcı elmi işçisi, dosent Zülfiyyə İsmayıl "Ulu Öndər Heydər Əliyev və Azərbaycan dili" mövzulu məruzəsində fəaliyyəti boyu milli dəyərlərimizə himayədarlıq edən dahi rəhbərin ana dilimizə qayğısından bəhs edib. Diqqətə çatdırılıb ki, görkəmli dövlət xadimi ana dilinin milli-tərbiyəvi əhəmiyyətini həmişə üstün tutmuş və vacibliyini vurğulamışdır. 1995-ci ildə qəbul edilən Konstitusiyada Azərbaycan dilinin dövlət dili kimi təsdiq olunması, Ümummilli Lider Heydər Əliyevin 2001-ci ildə "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" Fərman imzalaması, 2002-ci ildə "Azərbaycan Respublikasında Dövlət dili haqqında" Azərbaycan Respublikasının Qanununun qəbul edilməsi Azərbaycan dilinin dövlət dili kimi işlədilməsi, onun tətbiqi, qorunması və inkişaf etdirilməsi istiqamətində növbəti addımlar olmuşdur.

AMEA Naxçıvan Bölməsinin mətbuat xidməti

Şəhid Toğrul Məmmədova həsr edilmiş kitabın təqdimatı keçirilib

Azərbaycan Respublikası Prezidentinin Naxçıvan Muxtar Respublikasında səlahiyyətli nümayəndəliyinin dəstəyi ilə Naxçıvan Dövlət Milli Dram Teatrında şairə-publisist, "Vətən fədailəri" layihəsinin rəhbəri Manya Səxavətqızının avqust döyüşlərində və Aprel döyüşlərində iştirak edən, qısa müddət sonra 14 iyul 2016-cı ildə qəhrəmancasına şəhid olan Məmmədov Toğrul Səyyad oğlunun ömür və döyüş yolundan bəhs edən "Qeyrət təcəssümü" adlı kitabının təqdimatı olub.

Tədbirdə əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, Ümummilli Lider Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda canından keçən Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad olunub. Sonra Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Aprel döyüşləri, Azərbaycan Ordusunun qazandığı Tarixi Zəfər haqqında dəyərli fikirlərindən ibarət videoçarx təqdim edilib.

Tədbirdə Türkiyə Respublikasının Naxçıvandakı Baş konsulu Asip Kaya, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatları – Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı sədrinin müavini – aparatın rəhbəri Anar İbrahimov və Etimad Məmmədov, Ağdam Rayon icra başçısının müavini Xəqani Nəzərov çıxış ediblər. Sonra Aprel döyüşləri şəhidi, mayor Rasim Məmmədovun qardaşı Şahin Məmmədov, şəhid anaları və digər şəxslərə söz verilib. Çıxış edənlər xalqımızın erməni işğalçılarına qarşı mübarizəsindən, şəhid Toğrul Məmmədovun şərəfli ömür və döyüş yolundan danışıblar. Bildirilib ki, Məmmədov Toğrul Səyyad oğlu 1988-ci il iyulun 26-da Naxçıvan Muxtar Respublikasının Babək rayonunun Şıxmahmud kəndində anadan olub. 2005-ci ildə Azərbaycan Hərbi İnstitutuna qəbul olan Toğrul mühəndis-istehkam ixtisasını seçib. Hərbi təhsilini uğurla başa vurduqdan sonra Ağdam rayonunda yerləşən "N" hərbi hissədə xidmətə başlayıb. 2012-ci ildə baş leytenant hərbi rütbəsinə layiq görülüb. Hər zaman ön cəbhədə düşmənlə üz-üzə xidmət edən Toğrul öz sahəsi üzrə Azərbaycan Ordusunun peşəkar zabitlərindən biri olub və çoxsaylı döyüş əməliyyatlarının yerinə yetirilməsində, o cümlədən 2016-cı il Aprel döyüşlərində iştirak edib. Yaralansa da, döyüşlərdə sona qədər mübarizə aparıb. Həmin döyüşlərdə bir çox silahdaşı, o cümlədən briqada komandiri Raquf Orucov və dostu Nəcməddin Savalanov şəhid olub. Nəcməddin Savalanovun dəfnində qisas andı içən Toğrul bir neçə ay sonra düşməndən qisasını alıb. Toğrul Məmmədov 2016-cı il iyulun 14-də Ağdam rayonunun Baş Qərvənd kəndində düşmənin təxribatının qarşısını alarkən qəhrəmancasına şəhid olub. Nəşi Babək rayonunun Şıxmahmud kəndində torpağa tapşırılıb. Prezident cənab İlham Əliyevin Sərəncamı ilə şəhadətindən sonra "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli medal ilə təltif edilib.

Çıxışlarda xalqımızın şəhidlərimizin xatirəsinə hər zaman yüksək ehtiram göstərdiyi vurğulanıb, dövlətimizin başçısı tərəfindən şəhidlərin xatirəsinin əbədiləşdirilməsinin, onların ailə üzvlərinin və qazilərimizin sosial qayğılarının həllinin daim diqqət mərkəzində saxlanıldığı diqqətə çatdırılıb. Vurğulanıb ki, Vətən müharibəsi zamanı dövlət müstəqilliyimiz, torpaqlarımızın ərazi bütövlüyü uğrunda qurban gedən bütün şəhidlərimizin qisası döyüş meydanında, şücaət və qəhrəmanlıqla alındı, Tarixi Zəfərimiz isə onların müqəddəs ruhuna layiqli ehtiram nümunəsi oldu.

Tədbirdə Toğrul Məmmədovun müəllimləri, dostları, döyüş yoldaşları onunla bağlı xatirələrini bölüşüblər. "Qeyrət təcəssümü" kitabının müəllifi Manya Səxavətqızı və şəhidin qardaşı Üzeyir Məmmədov nəşrin ərsəyə gəlməsində rolu olan şəxslərə, tədbirin təşkilatçılarına və iştirakçılara minnətdarlıq ifadə ediblər.

Sonra məktəblilər Manya Səxavətqızının şəhid Toğrul Məmmədova həsr etdiyi şeirləri söyləyiblər.

Tədbirin sonunda iştirakçılara "Qeyrət təcəssümü" kitabı hədiyyə olunub.

Böyük Zəfərin başlanğıcı olan Aprel döyüşləri bizim şanlı hərbi qələbəmizdir

Torpaqlarımızın işğalından 23 il sonra Azərbaycan Ordusu dörd gün davam edən Aprel əməliyyatı ilə xalqımıza qələbə sevinci yaşatdı. Bu gün artıq bu tarixi qələbədən 7 il ötür. O döyüş ki uzun illərdir, Vətənimizin ərləri, ərənləri tərəfindən səbirsizliklə gözlənilmiş, böyük şövqlə, dildə "Vətən sağ olsun!" şüarı ilə yerimişdilər o qaniçənlərin üzərinə. Onların qəlbindəki yurd eşqi, azadlıq amalı tutmuşdu əllərindən. Rəşadətli Azərbaycan Ordusunun başladığı bu müqəddəs addım – əks-hücum əməliyyatı öz tarixi nəticəsini vermişdi, Qarabağın Füzuli, Cəbrayıl və Ağdərə, Tərtər rayonlarının işğal altında olan ərazilərindən, ümumilikdə, 2000 hektardan çox hissəsi azad edilmişdi. Bununla yanaşı, işğal altında olan torpaqlarımıza nəzarətin böyük bir hissəsi də qəhrəman Ordumuzun ixtiyarına keçmişdi.

Dövlət başçısı cənab İlham Əliyevin də dediyi kimi Aprel döyüşləri nəinki düşmənə, eyni zamanda dünyaya göstərdi ki, müzəffər ordumuz güclü döyüş qabiliyyətlərinə və yüksək peşəkarlığa malikdir. Bu döyüş həm də düşmənin zəif, aciz xislətini tarixin bütün dövrlərində olduğu kimi, bir daha dünyaya tanıtdı: ***"Ermənistan rəhbərliyi Aprel döyüşləri zamanı özlərini tam şəkildə ifşa etmişdir. Onlar həm döyüş meydanında acı məğlubiyyətə uğradılar, həm də siyasi meydanda heç bir dəstək almadılar. Halbuki onlar o dəstəyə çox arxalanırdılar, ona bel bağlayırdılar. O dəstəyi almadıqdan sonra həmişə olduğu kimi, müxtəlif ölkələri ittiham etməyə başladılar. Axırda məcbur olub Aprel döyüşlərinin məğlubiyyətini etiraf etdilər. Gah deyirdilər ki, onlar torpaqları itirməyiblər. Gah deyirdilər ki, o, əhəmiyyətsiz torpaqlardır. Gah da deyirdilər ki, onlar o torpaqları geri qaytaracaqlar. Bütün bunlar hamısı yalandır. Ermənistan rəhbərliyi özünü o qədər biabırçı vəziyyətə saldı ki, onun acı nəticələrini Ermənistan bu gün də hiss edir".***

Bu mövzumuzu da elə şərəfli yolu seçib, qəhrəmanlığı alın yazısı bilən, Vətən üçün canından keçərək əbədiyyətə qovuşmuş aprel şəhidləri Rasim Məmmədov və Qabil Orucəliyevin əziz xatirəsinə həsr edirik...

Zəfərli döyüşün dərilən çiçəyi

Bu qələbəmiz mərd oğulların, cəsur döyüşçülərimizin, igid əsgərlərimizin qələbəsi idi. Həmin igidlər ki, adlarını qanları ilə şanlı tariximizə yazdılar. Daha onlar bir ananın övladı deyil, Vətənin, bir elin oğlu idilər... Bu yolda canından keçən minlərlə qəhrəman oğullarımızdan idilər şəhid Qabil Orucəliyev və şəhid Rasim Məmmədov...



Rasim Məmmədov, rəssamı Cavid İsmayılov

Şəhidlik zirvəsi qəhrəmanlıq yoludur. 1977-ci ilin 20 mayında Babək rayon Cəhri qəsəbəsində qazi Əbdül kişinin ocağında Vətənə pənah, ailəyə dayaq olan Rasim adında bir oğul dünyaya gəldi. Bəlkə də, atasından onlara miras qalan düşmənə nifrət, Vətənə məhəbbət, torpağa, yurda olan bağlılıqdan gəlirdi qisas almaq arzusu... Kiçikliyindən vətənpərvər ruhda böyüyən Rasim atasından geri qalmayacağını hər kəsə göstərmək istəyirdi. Çevikliyi, qorxmazlığı, zəhmətsevərliyi ilə fərqlənirdi. Uşaqlığından qarşısına qoyduğu bu məqsədə sadiq qaldı. Vətənə olan məhəbbəti əllərindən tutub arzusunda olduğu hərbi formanı ona yaraşdırırdı. Ailədə görüb-götürdüyü qisas yanğısı ilə böyük qələbəyə inam bəslədi, heç zaman barışmadı düşmənin məkrli niyyəti ilə... Axı bir qazi oğlu necə razı ola bilərdi müqəddəs Vətən torpağının düşmən tapdağında olmasına?! Heç zaman məqsədindən dönmədi. Özü də yaxşı bilirdi ki, bu şərəfli yolun sonu ya şəhidlik zirvəsinə yüksəlmək, ya da şəhadətin bir addımlığından dönülən qazilik olacaq. Lakin Rasim bir şüar ilə irəliləyirdi. "Şəhid qanı axmayan torpaqdan Vətən olmaz!" Bu ideyası ilə hərb sənətinə yönəlmişdi. Və körpəlikdən könül verdiyi Vətəninə sevərək xidmət edirdi. Hərbin çətin sənət olması hər birimizə məlumdur. Lakin onun üçün bu məşəqqətli sənətin heç bir çətinliyi yox idi. Axı sevənlər sevdiyi uğrunda ölümə belə gedərlər. Xidmət yerləri dəyişdiyi qədər hərbi rütbəsi də dəyişirdi. Lakin yüksələcəyi ən böyük rütbə qabaqda idi. Onu ali şəhidlik zirvəsi gözləyirdi. 2016-cı ilin aprelində isə o artıq adını şəhid Rasim kimi tarixə qanı ilə yazdırdı. Həmin o qan Lələtəpə torpaqlarına qarışdı. Naxçıvan əhalisi zəfərli döyüşün dərilən çiçəyinin yolunu gözləyirdi. Tarix yazan igidimizi həm qarşılamaq, həm də vidalaşmaq üçün... 5 aprel 2016-cı il... Rasimin sevənləri üçün vidalaşma zamanı idi. Cismini torpağa tapşırsalar da, əziz xatirəsi ürəklərə silinməz olaraq yazıldı. O gündən hər kəsin gözlərində Rasim adlı kədər yarandı. İllər ötüb aylar bir-birini əvəzləsə də, ürəklərdəki Rasim adlı boşluğu heç nə əvəz etmir. Övladının dərdinə tab gətirməyən oğluna qovuşan qazi ata da var idi, oğlundan ərməğan olan şəhid anası adını daşımaq üçün dik duran da...

Rasimin yoxluğuna dözməyən Əbdül Məmmədov oğluna qovuşdu. Bəsti (Nazilə) ana ayrılığın həsrətinə, acısına yansa da, şəhid anası adına layiq şəkildə dayandı, dik və məğrur. Rasimin şəhadətinin alovu ilə yanan ürəklərinə qardaş və ata dərdini 3 qardaş bir-birlərindən təsəlli alaraq ayaqda qalmağa çalışırlar. Ey şəhidim, qanınla tabutuna sarılan bayraq övladların Asim və Aysunun təsəlli səbəbi oldu. İndi atasının qisasçı ləqəbini götürən Asim ölkəmizi qaydasız döyüş idman növü ilə xaricdə təmsil edir. Onlar fəxr edirlər ki, ataları canı ilə, qanı ilə qəhrəmanlıq dastanı yaradanlardan, yurdu yaşadanlardan oldu. Adını Vətənlə qoşa yaza bildi. Bu gün biz Rasim kimi oğullarımızla fəxr edirik.

Bir ölüb min dirilən qəhrəmanlar

Şəhidlik ərənlikdir, ölüm deyil, yenidən doğulmaqdı, ana fəryadı, bacı ah-naləsi, könül qubarıdır. İnsanın Allaha, Vətənə, haqqa olan sevgisinin həyat və ölüm astanasında seçdiyi, şəhadət tapdığı ali məqamdır. Ölümsüzlük dastanına çevrilmək, son nəfəsdə belə "Can Azərbaycan!", – deyib can fəda etməkdir, şəhidlik. Vətən Allah, xalq-haqq savaşından məğrurluqla çıxıb və bir anın içində milyonların əzizinə, Vətənin qəhrəman oğluna çevrilməkdir.

44 günlük qələbəmizin başlanğıcı olan 4 günlük Aprel döyüşlərindəki digər şəhidimiz isə Qabil Orucəliyev Əbdüləli oğludur. Həmin Qabil ki aprel qələbəmizdə qəhrəmanlıq hekayələri ilə yenidən doğuldu. 2016-cı ilin aprel ayının 1-dən 2-nə keçən gecə torpaqlarımızın bütövlüyü uğrunda Tərtər rayonu istiqamətində gedən döyüşlərdə ali şəhidlik zirvəsinə yüksəldi. 1991-ci il iyunun 15-də Naxçıvan şəhərində anadan olmuşdu. Hələ kiçikliyindən, 14 yaşında olarkən həyat ilk acısını daddırır ona. Atası Əbdüləli Orucəliyevi erkən yaşda itirir və ata həsrəti ilə böyüyür. Məni ən çox təsirləndirən isə öz taleyinin ondan geriyə, ailəsinə əmanət etdiyi kiçik oğlu Qabilə də yansıması idi. Doğumundan 4 gün sonra ömürlük ata həsrəti çəkməyə vadar oldu balaca Qabil də. Bu atabalanın taleyinə ata həsrətində yaşamağı yazılmışdı. Əbdüləli Orucəliyev hələ Qabilin 14 yaşı olarkən ürək çatışmazlığından həyat ilə vidalaşmışdı. Övladlarını təkbaşına böyüdən Nuriyyə ana ömrünü övladlarına şam-çıraq etdi. Tək təsəllisi isə Qabil idi. Daim deyirdi ki, Qabilim böyüyəcək, onun işığına sığınacağıq. Qardaş-bacılarına ata əvəzi olacaq...



Qabil Orucəliyev, rəssamı Cavid İsmayılov

Belə də olurdu. Arzularına çatırdı. Məktəb vaxtından könül verdiyi Tükəzban xanımla ailə həyatı qurmuşdu. Ata olacaqdı. Hər bir yaxını ilə bunun sevincini bölüşürdü. Məzuniyyət götürüb yeni dünyaya göz açan övladını görmək istəyirdi. 2014-cü ilin yayında "Mən zabitəm!" – qürurunu yaşayan Qabil, "oğul atasıyam", – deyib sevincini paylaşırdı. Lakin bu sevinci də yarım qaldı. Ata duyğusunu doyunca yaşaya bilmədən, körpəsini görüb, ətrini duymadan şəhadət şərbətin daddı. Əli adını qoyub atasının adını yaşatmaq istəyirdi. Amma bu arzusu baş tutmadı, Əli adıyla cəmi 10 gün yaşadı. Saçları ata sığalı görməyəcək, gözləri sevgi dolu ata baxışlarına baxmayacaq, ata nəvazişinin nə olduğunu heç bir zaman bilməyəcək balaca oğlunu hər kəs Qabil deyə səslədi. İndi isə Azərbaycanın bu kiçik Qabili 7 yaşındadır. İgid atanın balaca oğlu gələcəkdə atası kimi cəsur döyüşçü olmaq xəyalını qurur. Qabil Orucəliyev hələ məktəbli vaxtlarından Qarabağı işğaldan azad etmək arzusu olduğunu bildirən Nuriyyə ana şəhidimizin hərbiyə olan marağının da buradan yarandığını deyir. Daim Vətən eşqi ilə alışıb yandığını və işğal altındakı torpaqlara müqəddəs bayrağımızı sancmağı arzulayırdı. Hər ürək özü boyda bir dünyadır. Qabil də öz dünyasından baxırdı böyük dünyaya. Böyük məqsədlərlə qovuşacağı günün arzusuyla yaşayırdı. Şəhidliyə yüksəldiyi gün amalına çatdı. 11 aprel tarixində Naxçıvan əhalisi tərəfindən son mənzilə yola salındı. Qəhrəmanlar adına layiq dəfn olunur. Onların dəfni el-oba hüznüdür. Leytenant Qabil Orucəliyevin də dəfnində böyük izdiham var idi. On mindən çox insan dəfn mərasiminə toplaşmışdı. Sanki həyat durmuşdu. Lakin həmin gün oğlunu qarşılayan Nuriyyə ana qədər dik dayanan olmazdı deyərdim. Oğlunun müqəddəs ruhunun Tanrının rəhmət nuruna bələnmək, ölümdən sonra yaşamaq hər kəsə nəsib olmaz, mənim cəsur balam bu yolda səadətə çatdı, – deyirdi.

Behiştə zəvvar olan Qabilin də ölməzliyə yolu ölümdən keçdi və adını tarixə həkk etdi.

Əbəs yerə deyilməyib ki, şəhidlik hər kəsə qismət olmur, o zirvəyə yalnız qəlbində Vətən eşqi, yurd məhəbbəti saxlayanlar ucala bilir. Şəhid qanı ilə suvarılan torpaqlarımızda bu gün zəfər çiçəyi bitib, ay-ulduzlu, qeyrət və hünərvərlik rəmzi bayrağımız bu gün həmin Vətən torpaqlarımızda məğrurluqla dalğalanır, apreldən başlanılan Böyük Zəfər yolu tarixi qələbəmizlə, şəhidlərimizə ən böyük abidə ucaldılmaqla tamamlandı. Onların əmanət etdiyi müqəddəs Vətən torpağı bundan sonra da etibarla, şücaətlə qorunacaq.

Sürəyya QƏDİMƏLİYEVA

Aprel döyüşləri – qaranlıq dünyaya işıq saçan Zəfər yolu

(replika)

Ölkə gündəminin və beynəlxalq siyasi arenanın, sıx məşğul olduğu bir günlərdə müzəffər Azərbaycan Ordusunun 2016-cı ilin aprelində qazandığı tarixi qələbə bütün Cənubi Qafqaz regionunda kök salmış böyük "siyasət oyunçuları"nın planlarının pozulmasında nə qədər sarsıdıcı zərbə olduğunu bir daha göstərdi. Üzərindən 7 il keçəndən sonra həmin 4 günlük tarixi döyüşlərdə işğalçı Ermənistanın uğradığı ilk böyükmiqyaslı məğlubiyyətin yaratdığı şok dalğası daha sonra 2020-ci ildəki 44 günlük müharibədə əsl sunami gücü ilə kükrəyərək bütün əliqanlı erməni silahlılarını torpaqlarımızdan qovub çıxardı, hay həşirçilərinin də bədnam niyyətlərini dünyaya faş edib əsl simalarını üzə çıxardı. Söhbət, siyasi ismarıclarında, guya, Azərbaycanın torpaq bütövlüyünü dəstəkləyən, amma Qarabağı işğal edən ölkənin çaxır qoxuyan dövlət başçılarını, onların başıaçıq birinci xanımlarını evində qucaqlayıb kişmiş arağına qonaq edən cənub qonşuluğumuzdakı molla rejimindən gedir.

Dünya tarixi göstərir ki, müstəqil olub, güc sahibləri ilə öz dilində danışan hər bir dövlətin həm dostları, həm də düşmənlərinin olması tamamilə başa düşüləndir. Dövlətlər, onların siyasi liderləri məhz qurduqları dostluq və qardaşlıq münasibətlərinə görə dünyadakı nizamı formalaşdırmağa və son nəticədə, insanları sülh içində yaşatmağa müvəffəq olurlar. Sülh olduqda isə insanlara bütün gözəl arzuları əlçatandır. Keçmiş SSRİ dağılandan sonra yenicə müstəqilliyinə qovuşmuş Azərbaycan Respublikası vətəndaşlarının da belə gözəl arzuları, çox təəssüf ki, əvvəlcə erməni işğalçıları, daha sonra isə onları alət edən yaxın və uzaq dövlətlərin çirkin siyasəti ilə uzun müddət ürəyində qaldı.

Uzaq ölkələrlə işimiz yox, zira, Fransa, ABŞ və ya Rusiya kimi erməni populyasiyasının kompakt olduğu ölkələrdən Azərbaycana gələ bilən siyasi təzyiqlər zaman-zaman həmin ölkələrdəki siyasi elitanın əlindəki oyuncaq uşaq şarları kimi çox da şişməyərək qəfildən "part" eyləyir. Daha doğrusu, Fransa dırnaqarası demokratiyasının seçki xəmirinə vurulmuş erməni mayası bəzən bu ölkədə bürokratların üzünə vurulan şillədən sonra elə bir acı dad verir ki, bunu həmin ölkədə yaşayan etnik ermənilər belə etiraf etməyə xəcalət çəkirlər. Ona görə də bir gün qudurub Marseldə də muxtariyyət tələb edəcəklərini bilən Fransa dövləti heç zaman ermənilərə bundan artığına icazə verməz. O ki qaldı şimal qonşumuz Rusiyanın mövqeyinə, burada da hələ Türkmənçay müqaviləsindən tutmuş 1918-ci ilin mart hadisələrinə, Stalin dövründən Qorbaçova qədər, 20 Yanvar və Xocalı soyqırımından tutmuş sülhməramlıların Laçın yoluna alternativ torpaq yollardakı oyunlarına qədər hər şey ortadadır. Cənubi Qafqazda özünün mövqeyi naminə hər cür çirkin oyuna hazır olan bu etibarsız dövləti tanımamaq bu gün hər kəsə gülünc gələ bilər. Ona görə də, 44 günlük Vətən müharibəsində dövlət başçımızın uğurlu siyasəti ilə bu ölkəni neytrallaşdırmaqla təkbətək döyüşdə erməni faşizminin başını əzmək xalqımızın, müzəffər Ordumuzun ən böyük zəfəri idi.

Ancaq istər Aprel döyüşlərindən, istərsə də 44 günlük Vətən müharibəsindən sonra aydın oldu ki, Ordumuz, Ali Baş Komandanımız Qarabağda təkcə erməni təcavüzkarları ilə deyil, bizə sözdə, müsəlman dindaşıyıq, – deyən molla rejimi ilə də savaşmalı olacaqdı. Aprel döyüşlərinə, yəni mifik erməni ordusunun çürük strukturu ortaya çıxana, erməni siyasi təbəqəsində həbslər və istefalar başlayana qədər, guya, Azərbaycanın yanında olan mollalar bundan sonrakı bütün dövrlərdə, xüsusən 44 günlük müharibədə artıq felən erməni silahlı qüvvələrinin yanında olmaqdan çəkinmədilər. Müharibə dövründə Ordumuzun verdiyi tək bir şəhid, Gəncədə, Bərdədə, Tərtərdə öldürülən tək mülki həmvətənlimiz üçün belə gözyaşı tökməyən molla rejimi bu böyük savaşın İrandan gətirilən xurma, düyü və ya aftafa sayəsində qazanıldığını bəyan edəcək dərəcədə alçaldı. Bu gün hələ də blokadadan əziyyət çəkən Naxçıvana Bakıdan tranzit gətirilən yüklərdən dollar hesabı ilə qaz vurub qazan dolduran "din qardaşlarımız" kiçik bir bəhanə olduğu zaman bunu minnət edib üzə vurmaqdan da çəkinməyəcək dərəcədə qırmızısifət olurlar. Hər fürsətdə, yersizcə Azərbaycanın daxili işlərinə qarışmaq, səfirlik əməkdaşımızı öldürmək, hərbi texnikalarla dövlət sərhədlərimizi vaxtaşırı pozaraq gərginliyə səbəb olmaq, dövlət xadimlərimizə qarşı suiqəsd planlamaq, casus və narkotika ticarəti şəbəkəsi qurmaqla ölkəmizdə hərc-mərclik yaratmaq cəhdləri elmin, texnikanın və mədəniyyətin bu qədər inkişaf etdiyi XXI əsrdə dini bir, dili bir qardaşın digərinə edə biləcəyi ən iyrənc hərəkətlərdir.

Bəli, dumanlı pərdələri aralayıb bir çox həqiqətləri üzə çıxaran Aprel döyüşləri artıq şanlı tarix kimi arxada qalıb. Bu gün artıq Azərbaycan həmin döyüşlərdə azad olunmuş Tərtərin Talış kəndinə əzəli sakinlərini köçürüb, burada Novruz tonqalını yandırdı. Lələtəpədən yüksələn VƏTƏN EŞQİ Laçın yüksəkliklərindən aydın görünən Qarakilsəyə, Göyçə gölünə qədər işıq saçır. Ancaq tarixən bağlı olduğu qonşusunun uğurlarına sevinə bilməyən 30 milyon AZƏRBAYCANLININ yaşadığı İranın molla rejimi isə hələ də kirli əməllərinə başının qarışdığı öz qaranlıq dünyasındadır. Görünən incə saç telinə görə gənc qadını döyərək öldürmək qədər islami dəyərlərdən uzaq olan həmin dünyanın babaları hələ də bilmirlər ki, bir gün Savalandan qalxacaq AZADLIQ GÜNƏŞİ Ərdəbildən Urmiyəyə, Əhərdən Təbrizə qədər bütün Cənubi Azərbaycanı yenidən işıqlandıracaq, 50 milyonluq Azərbaycan xalqının dostunun kim, düşməninin kim olduğunu bir daha aydınladacaq.

SAVALAN

Uşaqların kütləvi dövri tibbi müayinədən keçirilməsinə start verilib

Uşaqlarda xəstəliklərin və onların risk amillərinin erkən mərhələdə aşkar edilməsi və sonrakı müşahidəsi vasitəsilə onlar arasında xəstələnmə, uşaqlara göstərilən tibbi xidmətlərin keyfiyyətinin yüksəldilməsi, dispanserizasiya tədbirləri çərçivəsində aparılan profilaktikanın gücləndirilməsi məqsədilə muxtar respublikada uşaqlar hər il dispanserizasiyadan keçirilir.

2023-cü ildə də Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin "Naxçıvan Muxtar Respublikasında yaşayan uşaq əhalisinin kütləvi dövri müayinələrinin aparılmasının təmin edilməsi haqqında" əmrinə uyğun olaraq aprel ayından başlayaraq muxtar respublikada uşaq əhalisinin kütləvi dövri tibbi müayinələrdən keçirilməsinə start verilib.

Bu məqsədlə aprelin 4-də Şərur Rayon Uşaq Xəstəxanasının pediatr, cərrah-travmatoloq, otolarinqoloq, nevropatoloq, oftalmoloq, stomatoloq və ginekoloq ixtisaslı həkimləri tərəfindən rayon 2 nömrəli tam orta məktəbin şagirdləri arasında müayinələr aparılıb. 1060 şagirdin iştirak etdiyi müayinələr zamanı hər hansı xəstəlik aşkar olunan şagirdlər dispanser qeydiyyata götürülərək daha dərindən müayinə və müalicə olunmaları üçün Şərur Rayon Uşaq Xəstəxanasına yönləndirilib.

Qeyd edək ki, qrafikə uyğun olaraq mərhələli şəkildə mayın 20-dək rayon məktəblərində də müayinələr davam etdiriləcək.

Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti

Bu gün Prezident cənab İlham Əliyev tərəfindən Azərbaycanda şahmatın yeni inkişaf strategiyası müəyyənləşdirilib və reallaşdırılıb. Məhz bunun nəticəsidir ki, Azərbaycan şahmat ölkəsi kimi artıq özünü təsdiq edib, ölkəmizdə şahmat sürətlə inkişaf edir, bu sahədə mühüm nailiyyətlər qazanılır. İndi ölkəmiz mötəbər beynəlxalq yarışlara ev sahibliyi edən məkan kimi tanınır.

Gəncliyimiz, gələcəyimiz

Qənbərli ailəsinin 3 şahmatçısı

Azərbaycanda şahmatın inkişafı dövlət siyasəti kimi səciyyələndirilir. Bütün şəhər və rayonlarımızda şahmat məktəblərinin fəaliyyəti ilə yanaşı, həm də orta məktəblərdə şahmat tədris edilir. İdmanın bu növü şagirdlərdə sərbəst düşünmə qabiliyyətinin, çevik qərar qəbuletmə, mürəkkəb şəraitdə taktika seçmək kimi vərdişlərin inkişafına təkan verir. Naxçıvan Muxtar Respublikasında da bu sahəyə xüsusi diqqətlə yanaşılır, ümumtəhsil məktəblərimiz şahmat vasitələri və yüksəkixtisaslı şahmat mütəxəssisləri ilə təmin edilib, şahmat dərslərinin tədrisi təcrübəli müəllimlər tərəfindən həyata keçirilir. Muxtar respublikanın bütün şəhər və rayonlarında müasir şahmat məktəbləri fəaliyyət göstərir. Müasir standartlara cavab verən məktəblərdən biri də Babək Rayon Şahmat Məktəbidir.

Uzun müddətdir, fəaliyyət göstərən Babək Rayon Şahmat Məktəbi bir çox istedadlı zəka sahiblərini ölkə şahmatına qazandırıb. Son illər uşaq və yeniyetmə şahmatçıların ölkədaxili və beynəlxalq arenalarda uğur qazanmasında məhz bu məktəbin rolu böyükdür. Məktəbin istedadlı zəka sahibləri arasında Qənbərli ailəsinin üzvləri – Hüseyn, Nigar və Əlini, xüsusilə vurğulamaq lazımdır. Yaşlarının az olmasına baxmayaraq, kifayət qədər uğurlara sahib olan zəka sahiblərinin bu yolda ən böyük dəstəkçiləri isə babaları Həsən Kərimovdur. Şahmatın sirlərini ilk olaraq nəvələrinə öyrədən Həsən müəllimin fikrincə, bu yolda ən böyük məsuliyyət və ağırlıq məşqçilərin üzərinə düşür: "Uşaqların ilk müəllimləri mən olsam da, burada əsas işi məşqçi-müəllimləri görür. Xüsusilə Emin Hacıyev, Hüseyn Əliyev, Urfan Sevdimalıyev və digər məşqçilərin bu uşaqların üzərində böyük əmək var. Bütün çətinliklərdə müəllimlər hər zaman uşaqların yanında olur, onlarla fərdi olaraq çalışır və keçiriləcək yarışlara, turnirlərə hazırlayırlar. Bununla yanaşı, uşaqlar Babək rayon Nehrəm kənd 1 nömrəli tam orta məktəbdə də şahmatla məşğul olurlar".

Qənbərli ailəsi, demək olar, bütün diqqətini bu idman növünə yönləndirib. Uşaqların ardıcıl olaraq uğurlar qazanması isə onları daha da ruhlandırıb. 5 ildir, şahmatla məşğul olan 11 yaşlı ***Nigar Qənbərli*** dəfələrlə muxtar respublika çempionu olub. Amma onun ən böyük arzusu Azərbaycanı Avropa və dünya çempionatında təmsil etməkdir: "Çıxış etdiyim yarışlarda uğur qazandıqdan sonra ölkə birinciliyində mübarizə apardım. 3 dəfə Azərbaycan çempionatının final mərhələsində çıxış etmişəm. 2018-ci ildə çempionatda 6-cı pilləni tutmuşam".

Nigar Qənbərli 2019-cu ildə Ümummilli Lider Heydər Əliyevin xatirəsinə həsr olunan Naxçıvan Beynəlxalq Şahmat Festivalında qalib adını qazanıb: "7-8 yaşlı şahmatçılar arasında qalib oldum. Bu mənim çıxış etdiyim ən böyük turnir idi. Yarışdan sonra Türkiyənin Sivas, Antalya şəhərlərində təşkil olunan beynəlxalq şahmat turnirlərində də mübarizə apardım və mükafatçılar sırasına düşdüm. İndi əsas məqsədim qarşıdakı yarışlara hazırlaşmaq, Azərbaycanı layiqincə təmsil etməkdir".

Bacısı kimi dəfələrlə muxtar respublika birinciliklərinin mükafatçısı olan ***Hüseyn Qənbərli*** 6 ildir, şahmatla məşğuldur. 2018-ci ildə Azərbaycan çempionatının final mərhələsində mübarizə aparan 14 yaşlı zəka sahibimiz bir il sonra Naxçıvan Beynəlxalq Şahmat Festivalında iştirak edib və 4-cü olub: "Həmin turnirdə çətin rəqiblərlə qarşılaşdım. Hər görüşdən sonra məşqçilərim mənə səhvlərimi deyirdilər və növbəti görüşlərdə bunu təkrarlamamağa çalışırdım. Son tura kimi gedən mübarizədə turniri 4-cü pillədə başa vurdum. Ardınca Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyası ilə Türkiyənin Hatay, Kahramanmaraş, Malatya, Van, Antalya şəhərlərində keçirilən beynəlxalq turnirlərdə mübarizə apardım. Qalib və mükafatçısı olduğum bu turnirlər mənə oyun baxımından çox təcrübə qazandırdı. İnanıram ki, qarşıdakı yarışlarda daha böyük uğurlar qazanıb məşqçilərimin etimadını doğruldacağam".



Qənbərli ailəsinin ən kiçik üzvü olan ***Əli*** 9 yaşının olmasına baxmayaraq, bir çox yarışlarda iştirak edib. Öz həmyaşıdları arasında bacarığı ilə seçilən şahmatçımız Naxçıvanda keçirilən bir çox yarışlarda mükafatçılar sırasına düşməyi bacarıb. Sonuncu dəfə Van və Malatyada təşkil olunan beynəlxalq turnirdə Əli əsl əzmkarlıq göstərib və topladığı xallarla diqqəti cəlb edib.

İntellektual idman növü olan şahmat müasir dövrümüzdə böyük izləyici kütləsinə malikdir. Bu sahədə ölkəmiz dünya şahmatına bir çox istedadlı zəka sahibləri bəxş edib və onların ən güclülər sırasında olması, Azərbaycanda bu idman növünə olan diqqətin bariz nümunəsidir. Bu həm də ölkəmizdə uşaq, yeniyetmə və gənclərin intellektual səviyyəsinin göstəricisidir.

Ceyhun MƏMMƏDOV

Naxçıvan boksçusu Elbrus Kərimlidən növbəti uğur

Bakıda yeniyetmə boksçular arasında Ümummilli Lider Heydər Əliyevin 100 illiyinə həsr olunan beynəlxalq turnir başa çatıb. Yarışda 11 ölkədən 100-dən çox boksçu mübarizə aparıb. Beş gün davam edən yarışda 13 çəki dərəcəsi üzrə qaliblər müəyyənləşib. Azərbaycan yığması turniri 3 qızıl, 1 gümüş və 13 bürünc medalla bitirib.

Naxçıvan Boks Federasiyasının idmançısı Elbrus Kərimli milli komandamızı 54 kiloqram çəki dərəcəsində təmsil edib. Yarışa ¼ final mərhələsindən qoşulan təmsilçimiz Tacikistan idmançısı Sodmehr Dovlatovu 4:1 hesabı ilə məğlub edib. Yarımfinalda millinin digər üzvü Azad Cavadzadə ilə görüşən Elbrus rinqi növbəti dəfə qalib kimi tərk edib. Görüş tam üstünlüklə yekunlaşıb. Həlledici görüşdə rus Pavel Kondraşova 0:5 hesabı ilə məğlub olan idmançımız turniri gümüş medalla tamamlayıb.

Qeyd edək ki, bu Elbrus Kərimlinin karyerası ərzində çıxış etdiyi ikinci beynəlxalq səviyyəli yarışdır. O, ilk sınağında Rumıniyanın Arad şəhərində yeniyetmə və gənc boksçular arasında keçirilən "Dracula Open" beynəlxalq turnirinin qalibi olmuşdu.

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti

İtmişdir

Hüseynov Turab Sabir oğlunun adına olan sürücülük vəsiqəsi itdiyindən etibarsız sayılır.

***

Şahbuz şəhərində Baxşəliyeva Qiymət Əsgər qızının adına verilmiş JN-261^ inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı

Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.*
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: *info@serqqapisi.gov.az*

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: **Güntac Şahməmmədli**

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1000. Sifariş № 236